# Azərbaycan Respublikasının Dövlət Təbiəti Mühafizə Komitəsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Təbiəti Mühafizə Komitəsi Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi adlandırılsın.
2. Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi ətraf mühitin mühafizəsi və təbiətdən istifadə sahəsində üstün idarəetmə və nəzarət orqanı kimi müəyyən edilsin.
3. Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi Azərbaycan Respublikasının Prezidentinə tabe edilsin.
4. Azərbaycan Respublikasının Prezidentinə təklif olunsun ki, Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin statusu haqqında Əsasnamə qəbul etsin.

**Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini**
**A. CƏLİLOV.**

Bakı şəhəri, 21 may 1992-ci il.
№ 130.